


# Qalibiyyətin simvolu və gələcəyə güclü inam

***2020**-ci il dekabrın 10-da Bakının Azadlıq meydanı daha bir tarixi ana şahidlik etdi. Ölkəmizin müstəqillik mübarizəsinin simvolu olan meydanda bu dəfə daha böyük, möhtəşəm tədbir keçirildi. Vətən müharibəsindəki qələbəni simvolizə edən ilk Zəfər paradı baş tutdu.*

44 günlük müharibədən sonra Azərbaycan illərlə davam edən həsrətə son qoydu, əzəli torpaqlarını işğaldan azad etdi və böyük zəfər qazandı. Bu mənada əldə etdiyimiz qələbə təkcə ərazilərimizin geri alınması ilə bağlı deyil, həm də Azərbaycan dövlətinin qüdrətinin, xalqının birliyinin və əzminin təcəssümüdür. Zəfər paradı da xalqımızın bu böyük zəferini təntənəli şəkildə qeyd etmək, həm də gələcək nəsillərə bu mühüm anı yaşatmaq məqsədi daşıyırdı. Möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər keçidinə müdafiə nazirinin müavini Kərim Vəliyev komandanlıq edirdi. Paradda 3 min nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş olundu. 44 günlük müharibə zamanı düşməndən götürülən hərbi qənimətlərin bir qismi də sərgiləndi. Bu, yeni reallığın sübutu idi. Prezident İlham Əliyevin paraddakı çıxışı tam olaraq bu vəziyyəti izah edirdi: "Bu zəfər tarixi zəfərdir. Azərbaycan xalqı bu günü 30 ilə yaxın müddət ərzində gözləyirdi, 30 ilə yaxın müddət ərzində Ali Baş Komandanın əmrini gözləyirdi. Mən dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, biz daha güclü olmalıyıq və nəyi nə vaxt, necə etmək lazımdır, biz bilirik. Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik".

Dörd il bundan öncə Azadlıq meydanında sıralanan Azərbaycan ordusunun texnikası və müharibə iştirakçılarının qürurlu simaları bir daha dünyaya göstərdi ki, ölkəmiz  hər zaman yeni qələbələrə doğru irəliləməyə hazırdır. Ölkəmiz bu paradda müdafiə potensialını nümayiş etdirdi. Dünyanın ən müasir silahları ilə təchiz olunmuş ordumuz texnoloji inkişafa verilən önəmin ən yaxşı təcəssümü kimi çıxış etdi. Hər biri öz sahəsində peşəkar olan hərbçilərimiz atdıqları qətiyyətli addımlarla göstərdilər ki, Azərbaycan Silahlı Qüvvələri təkcə hərbi güc baxımından deyil, həm də mənəvi cəhətdən tamamilə hazırlıqlıdır. Aydın mesaj verildi ki, Azərbaycan hər zaman öz maraqlarını qorumağa hazırdır və regiondakı istənilən təhlükəyə qarşı gücünü göstərməyə davam edəcək.

Bu parad yalnız ordunun deyil, həm də xalqın zəfərinin göstəricisi idi. Azərbaycan xalqının müharibənin ilk günlərindən bəri göstərdiyi vətənə sevgi, birlik və əzmkarlıq əldə olunan qələbənin arxasında duran əsas qüvvə oldu. Elə bu səbəbdən də Azadlıq meydanında toplaşan insanlarda eyni duyğunun təntənəsi hiss olunurdu: qürur, vətənə sonsuz bağlılıq və xalqımızın gələcəyinə olan ümid. Bu baxımdan, Zəfər paradı Azərbaycanın gələcəyinə olan inamın simvolu hesab olunmalıdır.

Zəfər paradından bəhs edərkən xüsusilə vurğulamaq lazımdır ki, bu, həm də Azərbaycan-Türkiyə qardaşlığının simvolu kimi yadda qaldı. Çünki Azadlıq meydanında baş tutan paradda Azərbaycan əsgər və zabitləri ilə yanaşı, türk hərbçiləri də iştirak etmişdi. Zəfər keçidini Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birgə fəxri qonaq qismində dəvət olunan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan izləmişdi. Hətta qardaş ölkənin dövlət başçısının hər kəsi duyğulandıran çıxışı da gündəmə çevrilmişdi. O bildirmişdi ki, bu gün Azərbaycanın milli şairi Əhməd Cavadın, Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin, Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün bütün türk dünyası üçün zəfər və qürur günüdür: "Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.

*Arazı ayırdılar,*
*Lil ilə doyurdular.*
*Mən səndən ayrılmazdım*
*Zülm ilə ayırdılar.*
*Ay Laçın, can Laçın,*
*Mən sənə qurban, Laçın.*

Gözəlliyinə qurban olduğumuz Laçın artıq azaddır. Laçın kimi, Şuşa kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər də artıq azaddır".

Bütün bunların fonunda 10 dekabr şanlı tariximizin ən parlaq səhifələrindən biri hesab olunmalıdır. Bu möhtəşəm an həm də gələcəyə dair bir mesajdır: Azərbaycan hər zaman irəliləyəcək və yeni zirvələrə yüksələcək.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**